

Azərbaycan dünyaya
günəş kimi doğacaq.
*Heydər ƏLİYEV*

*Xalqın sözü haqq sözüdür*

# LERİK

**№ 13-14 (589-590)** **02 iyul 2019-cu il** **Qəzet 1937-ci ildən çıxır** **Qiyməti 40 qəpik**


# Sosial sahədə növbəti inqilabi addımlar

## *Prezident İlham Əliyevin sərəncamları və yeni qanunvericilik təşəbbüsü 2,1 milyondan çox vətəndaşı əhatə edir*



**Bizim siyasətimiz sosialyönümlü siyasətdir. Çalışırıq bütün əlavə gəlirlərimiz sosial sahəyə yönəldək ki, vətəndaşlarıln rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəmizin dinamik inkişafı təmin olunsun.**

***Azərbaycan Prezidenti***
***İlham Əliyev***

☞ **Səh: 2**

# Tikəband kəndində vətəndaşlarla səyyar görüş-qəbul keçirildi

Lerik Rayon İcra Hakimiyyəti başçısı Rövşən Bağırov 14 iyun 2019-cu il tarixdə rayonun Tikəband kəndində vətəndaşlarla səyyar görüş-qəbul keçirdi.

Rayon icra hakimiyyətinin başçısı ölkəmizin sosial-iqtisadi inkişafı naminə dövlət səviyyəsində həyata keçirilən tədbirlər, eləcə də son vaxtlar əhalinin rifah halının yaxşılaşdırılması, sosial problemlərin həlli istiqamətində ölkə rəhbərinin imzaladığı fərman və sərəncamlar barədə məlumat verdi.

Cənab Prezidentin regionlara göstərdiyi diqqət və qayğını görüş iştirakçılarının nəzərinə çatdırdı və rayonda görülən abadlıq-quruculuq işlərindən bəhs etdi.

Sonra rayon İcra hakimiyyətinin başçısı Rövşən Bağırov sakinlərdən onları narahat edən məsələlər barədə məlumat və təklif vermələrini xahiş etdi.





Görüş-qəbulda 9 vətəndaş dinlənildi. Vətəndaşlar ərazidə elektrik xətlərinin təmirinə və sipləşdirilməsinə, Veri-Tikəband avtomobil yolunun texnika ilə hamarlanmasına, Tikəband kəndində mövcud su probleminin həll edilməsinə, Davradibi kəndinin telefonlaşdırılmasına və digər problemlərin həllinə köməklik göstərilməsini xahiş etdilər.

Səyyar görüş-qəbulda təklif və qaldırılan problemlərin icrasına nail olmaq məqsədilə görüləcək tədbirlər qeyd olundu. Qəbul zamanı qaldırılmış məsələlərin əksəriyyətinin Dövlət Proqramında icrasının nəzərdə tutulduğu bildirildi, digər məsələlərlə bağlı aidiyyəti vəzifəli şəxslərə müvafiq tapşırıqlar verildi.

**Qeyd:** Çayrud, Mistan və Kələxan kəndlərində səyyar görüş qəbullar keçirilib.

# 17 iyun - Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramıdır



İyunun 17-də Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü münasibətilə tədbir keçirildi. Tədbirdə Lerik Rayon İcra Hakimiyyətinin başçısı **Rövşən Bağırov,** Azərbaycan Respublikası Milli Məclisinin deputatı **İqbal Məmmədov,** idarə, müəssisə və təşkilat rəhbərləri, tibb işçiləri, ictimaiyyət nümayəndələri iştirak edirdi. Əvvəlcə tədbir iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, xatirəsini ehtiramla yad etdilər.

Tədbiri giriş sözü ilə açan Lerik Rayon Mərkəzi Xəstəxanasının baş həkimi **Mübariz Ağayev** 17 iyun - Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü münasibətilə şərəfli peşə sahiblərini təbrik edərək bildirdi ki, Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il iyunun 17-də təsdiq olunmuş 2-ci hökumət kabinetinin strukturunda ilk dəfə olaraq Səhiyyə Nazirliyi yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı Sərəncamla respublikanın sosial inkişafı sahəsində tibb işçilərinin böyük xidmətləri və Azərbaycan Xalq Cümhuriyyəti Səhiyyə Nazirliyinin 1918-ci il iyunun 17-də yaradılması nəzərə alınaraq hər il iyunun 17-nin Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunması qərara alınmışdır.

1918-1920-ci illərdə respublikada səhiyyə sisteminin inkişafı istqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Sovet hakimiyyəti illərində sosial sahədə müəyyən işlərin işlərin görülməsinə baxmayaraq, sonrakı dövrlərdə durğunluq yaranmışdı. 1960-cı illərin sonu-1970-ci illərin əvvəlləri, daha dəqiq desək, Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk aylardan başlayaraq Azərbaycanın sosial-iqtisadi, elmi-mədəni həyatında böyük canlanma yarandı, bütün sahələrdə olduğu kimi, səhiyyədə də inkişaf dövrü başladı. Təkcə 1970-1980-ci illərdə Azərbaycanda yüzlərlə iri səhiyyə obyektləri inşa edilmişdir. Dövlət müstəqilliyinin bərpasından sonrakı ilk illər bir sıra çətinliklərlə müşayiət edilsə də, həmin illər vaxtilə Azərbaycan səhiyyəsində qazanılmış nəticələrdən praktikada istifadə edilməsinə yönəlmiş fəal elmi axtarışlarla əlamətdardır. Prezident Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından dərhal sonra onun həyata keçirməyə başladığı islahatlar tibb sahəsində də öz bəhrəsini verdi, səhiyyənin səmərəsinin yüksəldilməsi və intensivləşdirilməsi üçün geniş baza yaradıldı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində bu gün ölkəmizin səhiyyə sistemi gündən-günə inkişaf edir, paytaxtda və bölgələrdə müxtəlif tibb müəssisələrinin fəaliyyəti üçün maddi-texniki baza gücləndirilir.

Tədbirdə Yeni Azərbaycan Partiyası Lerik rayon təşkilatı aparatının rəhbəri **Elxan Qənbərov,** Nücü kənd həkim məntəqəsinin müdiri **Ağaddin Rzayev,** Azərbaycan Respublikası Milli Məclisinin deputatı **İqbal Məmmədov** çıxış edərək ölkəmizdə bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də inkişafın yüksəldilməsi, əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması yönündə böyük tədbirlərin həyata keçirildiyini vurğuladılar, rayonun səhiyyə sahəsinə, tibb işçilərinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə etdilər.

Lerik Rayon İcra Hakimiyyətinin başçısı **Rövşən Bağırov** 17 iyun - Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü münasibətilə tibb işçilərinə təbriklərini çatdıraraq bildirdi ki, əhalinin sağlamlığının qorunması, tibbi yardımın keyfiyyətinin yüksəldilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin daim diqqətində olmuş, əhaliyə göstərilən tibbi xidmətin səviyyəsinin yaxşılaşdırılması üçün müvafiq qanunvericilik bazası təkmilləşdirilmişdir. Bütün bunlar əhaliyə göstərilən xidmətin keyfiyyətinin artırılması istiqamətində görülən silsilə tədbirlərin davamıdır. Müxtəlif vaxtlarda Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə səhiyyə sahəsində səmərəli fəaliyyətinə görə bir qrup tibb işçisi fəxri adlara, dövlət təltiflərinə layiq görülmüşlər. Onların arasında rayonda fəaliyyət göstərən tibb işçiləri də olmuşlar. Rayon üzrə 3 nəfər "Əməkdar həkim" fəxri adına layiq görülmüşdür. Bütün bunlar ölkə rəhbərliyi tərəfindən tibbi personala göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Daha sonra Lerik Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov səhiyyə sahəsində uzunmüddətli səmərəli əmək fəaliyyətinə görə və 17 iyun - Azərbaycan Respublikası tibb işçilərinin peşə bayramı günü münasibətilə Lerik Rayon İcra Hakimiyyətinin fəxri fərmanı ilə təltif olunmuş bir qrup tibb işçisinə fəxri fərmanları təqdim etdi.

# Qartal zirvədə uçar




**Səxavət, bizi tez tərk etdin, qardaşım...**

**Şəklinlə üz-üzə dayanmışam, heç bilmirəm nə danışım!**

**Sanki ruhunla danışıram. Hüzünlü, dözümlü Qarabağın qan çilənmiş çöllərində bir həzin bayatı çəkib dolaşıram.**

**Şəhid qardaşım, səni cəng meydanına haraylayıb gətirən Vətən sevgisi oldu. Elə bu sevgidəndir ki, belə tezliklə ana torpaq səni öz qoynuna aldı: əzizləyib oxşamaq üçün!**

**Torpağımız müqəddəsdir, Məkkə, Mədinə torpağı kimi. Çünki bu torpaq şəhid qanı əmib, bağrı qan olmuş qızıl laləyə dönüb, bu qan gül-çiçək olub, torpaqdan baş qaldırıb.**

**Yoxluğundan xəbər verən məzarına baxıram. Bura şəhidlərin uyuduğu məkandır, qeyrət, şərəf ünvanıdır...**

**Hər igidin can fədası düşmənə bir göz dağıdır, zirvələrdən sisi, çəni dağıdır...**

### Sırxavənddə qanlı döyüş

Lerik rayonundakı Rvarud kənd orta məktəbini uğurla bitirən Səxavət Əbi oğlu Hacıyev Bakı Politexnik Texnikumuna daxil oldu, iki il hərbi xidmətdə mətinlik məktəbi keçdi. Bir müddət istehsalatda işlədi. Həmin vaxt ermənilərin Qarabağ iddiası genişlənir, xarici dövlətlərdəki havadarları onlara dəstək verirdi. Köməksiz qalan dinc azərbaycanlılar tarixi dədə-baba torpaqlarından qovulurdu, Bakını və digər şəhər və qəsəbələri qaçqın dalğası bürüyürdü.

Xocalı faciəsində dünyada misli görünməyən dəhşətli soyqırım törədilmiş, etnik təmizləmə aparılmışdı. 1992-ci il fevralın 18-də Xocalı istiqamətində olan yaşayış məntəqələri azərbaycanlılardan təmizlənmiş, mühüm mövqelər ermənilər tərəfindən tutulmuşdu, Xocalını təhlükə bürümüşdü. Vətənin qədim torpaqları təhlükədə, dinc əhali səksəkədə idi.

Vicdanlı, vətənpərvər övlad, torpaq təssübü çəkən qeyrətli vətəndaş Səxavət Hacıyev 1992-ci ilin fevralında dostlarına qoşulub Bakıda hərbi qərargaha yollandı və könüllü olaraq Qarabağa getdi. Onun ilk döyüş yeri qədim Şuşa şəhəri oldu. İgid Mübariz burada gedən vuruşmalarda fərqləndi, döyüş dostlarını düşmənə qarşı qətiyyətli mübarizəyə, məmləkəti qorumağa ruhlandırdı.

Naxçıvanın Sədərək bölgəsi tez-tez ermənilərin atəşinə məruz qalırdı. Heydər Əliyevin müraciətindən sonra, Sədərək uğrunda gedən döyüşlərdə Mübariz və silahdaşları cəsarət və mətinlik göstərdilər, düşməni vurub geri çəkilməyə məcbur etdilər. Səxavət hər dəfə ağır döyüş nöqtələrinə gedəndə bunu valideyinlərindən gizlədər, onlar fikir çəkməsin deyə, iş yerindən uzaq yerə ezamiyyətə göndərildiyini söylərdi. Bu da onun fikirləşdiyi müqəddəs bir yalan idi.

### Səxavətin son döyüşü

1992-ci ilin dekabr ayı idi. Qarabağda qış mülayım keçsə də, vəziyyət olduqca kəskinləşmişdi. Səxavət yenidən Milli Qurtuluş tağımının tərkibində Qarabağda ağır, qanlı döyüşlərin iştirakçısı kimi öz üzərində vətəndaş-əsgər məsuliyyətini daha çox hiss edir , bu qanlı olayların, haqsız ərazi iddialarının nə ilə bitəcəyi barədə düşünürdü. Məğlubiyyət sözü onu diksindirmişdi. "Axı, biz Şah İsmayıl Xətai babamızın varisləriyik,-düşünərdi. Şah babamız qılınc, ox gücünə Azərbaycan xanlıqlarını bir bayraq altında birləşdirmiş, ölkənin hüdudlarını möhkəmləndirmiş, məğlubiyyətlə heç vaxt barışmamış, qolubükülməz sərkərdə, diplomat, böyük bir dövlət başçısı kimi dünyaya səs salmışdı. İndə isə ... "Dığalara məğlub olmaq bizə yaraşmaz. Biz tarixi qəhrəmanlığımızı gərək həmişə uca tutaq"...

Mübariz amansız, ədalətsiz müharibənin ağrı-acılarını dadaraq Vətən qeyrəti yolunda əsl qorxubilməz döyüş ustası kimi bərkimiş, çevikliyi, bacarığı, cəsarəti, düşmənin hiyləsini duymaq qabiliyyəti tabor komandiri Şahin Tağıyevin, bölük komandiri Əziz Rəcəbovun diqqətindən yayınmamış, o, bütün döyüşçü dostlarının sevimlisinə, əzizinə, "alay oğlu"na çevrilmişdi.

17 yanvar 1993-cü il. Həmin tarix Səxavət Hacıyevin sonuncu qəhrəmanlıq tarixidir. Sırxavənd uğrunda qanlı döyüşlər gedirdi.Yüksəklikdə mövqe tutan düşmən PDM-i döyüşçülərimizin irəliləməsinə mane olurdu. Nəyin bahasına olursa-olsun düşmənin döyüş maşınını susdurmaq lazım idi. Səxavət düşünmədən qərara gəldi. O, bir neçə qumbara götürdü, gizli yollarla düşmənə yaxınlaşdı. Onun sərrast atdığı qumbara düşmən maşınını zədələdi. Geriyə çəkilən PDM-in atdığı mərmi qəlpələri cəsur döyüşçünü baş nahiyəsindən ağır yaraladı. Neçə-neçə döyüşçü yoldaşını ölümün pəncəsindən xilas etsə də özü mərmiyə tuş oldu. Onu vertolyotla təcili Bakıya yola saldılar. Dostları bu acı xəbəri eşidib kədərləndilər, düşmənə qarşı daha amansız oldular.

**(Davamı səh. 2-də)**

**Lerik Rayon İcra Hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu**

**C Ə D V Ə L İ**

| S/s | Soyadı, adı və atasının adı | Vətəndaşları qəbul edənin vəzifəsi | Qəbul günləri | Qəbul saatı |
|---|---|---|---|---|
| 1 | Bağırov Rövşən Elmidar oğlu | Lerik Rayon İcra Hakimiyyəti başçısı | Həftənin II günü | *Saat $10^{00}$* |
| 2 | Baxşıyev Cəlil Yüzbaşı oğlu | Başçının birinci müavini | Həftənin I günü | *Saat $11^{00}$* |
| 3 | Məlikov Habil Ağaxan oğlu | Başçının müavini - Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Həftənin III günü | *Saat $10^{00}$* |
| 4 | Vəliməmmədova Arzu Həmzə qızı | Başçının müavini - İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Həftənin IV günü | *Saat $10^{00}$* |
| 5 | Bayramov Əlipənah Hüseynağa oğlu<br>Talıbov Gündüz Hümbətəli oğlu | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri<br>İnformasiya təminatı və təhlil sektorunun müdiri | Həftənin V günü | *Saat $10^{00}$* |
| 6 | Quliyev Araz Qurban oğlu<br>İbrahimov Əflatun Əjdər oğlu | Hüquq şöbəsinin müdiri<br>Memarlıq və tikinti şöbəsinin müdiri | Həftənin VI günü | *Saat $11^{00}$* |

**Qeyd:** Vətəndaşların qəbulu rayon icra hakimiyyəti başçısı aparatının inzibati idarə binasında ayrılmış "Qəbul otağı" nda aparılır. Bayram günlərinə düşən qəbul günləri növbəti iş gününə keçirilir.

Milli qəhrəmanlar və onların ailə üzvləri, qaçqınlar, məcburi köçkünlər, şəhid ailə üzvləri və Qarabağ müharibəsi əlilləri növbədənkənar qəbul olunurlar.

Vətəndaşların qəbulu ilə bağlı əlaqə telefonu: 025-274-61-82

# Sosial sahədə növbəti inqilabi addımlar

## *Prezident İlham Əliyevin sərəncamları və yeni qanunvericilik təşəbbüsü 2,1 milyondan çox vətəndaşı əhatə edir*

**Bizim siyasətimiz sosialyönümlü siyasətdir. Çalışırıq bütün əlavə gəlirlərimiz sosial sahəyə yönəldək ki, vətəndaşlarıln rifah halı daha da yaxşılaşsın, işsizliklə bağlı problemlər daha da yüksək səviyyədə həll olunsun və ölkəmizin dinamik inkişafı təmin olunsun.**

**Azərbaycan Prezidenti İlham Əliyev**

**Sizə minnətdarıq, cənab Prezident!**

Azərbaycan xalqı Prezident Ilham Əliyevin yüz minlərlə insanın sosial rifah halının yaxşılaşdırılmasına yönəlmiş növbəti inqilabi addımın şahidi oldu.

Mütəxəssislərin sözlərinə görə, əmək haqqının əhəmiyyətli artımı əhalinin alıcılıq qabiliyyətinə müsbət təsir etməklə, iqtisadi aktivliyinin daha da artmasına və beləliklə, iqtisadiyyatın digər sferalarına da öz töhfəsini verəcək. Uğurla aparılan sosial-iqtisadi siyasətin sayəsində Azərbaycan vətəndaşının, onun sosial təminatının və rifahının dayandığını özündə növbəti dəfə bariz şəkildə ehtiva edən bu qərarlar ümumilikdə 2 milyondan çox insanı əhatə etməklə, həm dövlət orqanlarında, həm də özəl sektorda çalışan şəxslərin maddi vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıracaqdır.

Dövlət başçımızın daim vətəndaşların yanında olmasından, çoxmilli müəllimlər ordusu da məmnun qalmışdır. Hörmətli Prezidentin hər zaman xalqın problemlərinin həlli barədə düşündüyünü yaxşı bilirik və hər birimiz ona minnətdarıq. Əməyimizin qiymətləndirilməsi, bizə göstərilən diqqət və qayğı hər birimizi daha səmərəli işləməyə, xalqımızın gələcəyi olan gənc nəslin mükəmməl yetişdirilməsinə sövq edəcəkdir.

Prezidentin sərəncam ilə minimum əmək haqqının artırılması ilə bağlı sərəncam sentyabr ayından etibarən 250 minə yaxın müəllimin əmək haqqında özünü göstərəcək. Diaqnostik qiymətləndirmədən keçən müəllimin maaşı 20 faiz, diaqnostik qiymətləndirmədən keçməyən və vahid tarif cədvəli ilə əmək haqqı alan 100 minə yaxın işçinin isə əmək haqqı 40 faiz artacaq.

Dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin əməkhaqqının artırılması bizə sevinc yaşatdı. Müəllimə verilən qiymət, onun sosial vəziyyətini yaxşılaşdıracaq. Bu addım bizi yeni tədris ilində daha məsuliyyətli olmağa, göstərilən diqqət və qayğıya əməyimizlə cavab verməyə ruhlandırır.

***Kamal Məmmədov,***
***Qosmalian kənd tam orta məktəbinin müəllimi***

# Dövlət qayğısını hiss edirik

Ölkə vətəndaşlarının əmək hüquqlarının qorunması, onların maddi və sosial rifah halının yaxşılaşdırılması, layiqli həyat şəraitinin yaradılması ölkədə həyata keçirilən siyasətin tərkib hissəsidir. Odur ki, ölkədə bu istiqamətdə ardıcıl tədbirlər görülür. Minimum əməkhaqqının artırılması əmək ödənişində bərabərsizliyi aradan qaldırır, orta təbəqənin formalaşmasına, rifah halının yaxşılaşmasına səbəb olur. Bu da xalqın dövlətə, liderinə olan inam və etibarını daha da gücləndirir.

2019-cu ilin əvvəlində elə bir sahə yox idi ki, maaşlarda, sosial müavinətlər və təqaüdlərdə artımlar edilməsin. Məsələn, şəhid ailələrinə istisnasız olaraq birdəfəlik müavinətlərin verilməsi, aylıq müavinətlərin verilməsi, aylıq müavinətin 242 manatdan 300 manata, Əfqanıstan veteranlarının müavinətinin 220 manatdan 300 manata yüksəlməsi Prezidentin bu kateqoriyadan olan insanlara göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

***Veysəl Məlikov,***
***Qarabağ müharibəsinin əlili***

# Ölkə başçısı sözünün sahibidir

Azərbaycan iqtisadi cəhətdən inkişaf etdikcə ölkə əhalisinin sosial güzəştləri də artır. Çünki həyata keçirilən iqtisadi siyasətin əsas məqsədi də budur. Dövlət başçısının imzaladığı sərəncamlarla ölkədə minimum əmək haqqının, həmçinin müxtəlif sahələrdə çalışanların əmək haqlarının, eləcə də dövlət başçısının qanunvericilik təşəbbüsü nəticəsində minimum pensiyaların artırılması birbaşa olaraq 2,1 milyondan çox vətəndaşın əmək haqqı və pensiyalarında ciddi artıma imkan verəcək.

Bu da onu göstərir ki, dövlətimizin iqtisadi inkişafına uyğun ölkəmizin güclü imkanları var. Bu gün sosial sahədə atılan addımların təməlində Prezident İlham Əliyevin düşünülmüş islahatları və müdrik qərarları dayanır.

Bizə göstərdiyi böyük diqqət və qayğıya görə cənab Prezidentə lerikli təqaüdçülər adından təşəkkürümüzü bildiririk.

***Beytulla Şıxəliyev,***
***pensiyaçı***

# 26 ildən sonra



Həmin gün Qarabağ müharibəsinin qazisi Üzeyir Məmmədov üçün ikiqat bayram idi. Bir tərəfdən 26 il bundan əvvəl bir səngərdə vuruşduğu, ölümün gözünə dik baxan səngər yoldaşlarını yenidən görmək, bir yandan da qızı Rəna ilə Talenin toyu sonsuz sevinc bəxş eləmişdi ona. Cəngəmirandakı bağda gülgülü çağırırdı, quşlar simfoniya oxuyurdu.



Onlar Azərbaycanın müxtəlif rayonlarından gəlmişdilər. İş elə gətirdi ki, çay süfrəsi arxasında əyləşən igid əsgərlərlə, Qarabağ veteranları ilə mən də həmsöhbət oldum, onları dinlədim.

Ağır olsa da çətin cəbhə günlərinin üzüntülü anları, şəhid qardaşlarımın, mərd, qoçaq və igid əsgərləri xatırladan



veteranların sinəsi deməyə sözlə dolu idi.

Balakənli övladı Azad İsmayılov, Qədir Süleymanov (Abşeron), Füzuli Şəkərov, (Füzuli) Elşən Hacıyev (Göyçay), Fərman Vəliyev (şəhid qardaşı), Vasiv Bayramov (şəhid qardaşı), Mehman, Elçin, Surxay, Bərçin və başqaları ilə söhbət edərkən sanki o qanlı-qadalı illərə boylanır, vuruşduqları səhnələri xatırlayır, düşmənə bir daha nifrətlə mesaj gödərirdilər. Deyirdilər ki, qarı düşmən öyünməsin ki, torpaqlarımızı caynağına alıb. Biz bu gün Ali Baş Komandanın əmrinə hazırıq, zəbt olunmuş əraziləri azad etməyə, şəhid qardaşlarımızın qisasını almağa hazırıq...

Azad İsmayılov dedi:

- Füzuli ətrafındakı döyüşlərin iştirakçısıyam. Qacar kəndini müdafiə edirik. Düşmən güclü əks-hücuma keçdiyindən bölüyümüz mühasirəyə düşdü. Düşmən BTR-ləri gülləni yağış kimi yağdırırdı. Nə edəcəyimizi bilmirdik. Bu zaman Üzeyir səngərdən çıxaraq pulemyot və avtomatla atəş açmağa başladı.

Patron daraqlarını Üzeyirə çatdırırdıq. O, isə bizi qoruyurdu. Beləliklə də mühasirədən çıxa bildik. Əgər Üzeyir olmasaydı, biz də burada olmazdıq...

Çox çəkmədi ki, "Ruslan" şadlıq sarayında toy ziyafət məclisi başlandı. Bu toy adi toylardan deyildi. Sözün həqiqi mənasında Üzeyirin cəbhəçi dostları, çıxış edənlər öz sözləri ilə, şux rəqsləri ilə, əllərində tutduqları üçrəngli bayraqlarla toya özgə bir təravət, canlanma, görüntü gətirdilər.

Belə qaziləri, basılmaz igidləri olan ölkənin torpaqları işğal altında qala bilməz.

Belə əhval-ruhiyyədə olan Vətən övladları Şah İsmayılın, Koroğlunun, Cavanşirin, Nəbinin, Həzinin ruhu qarşısında üzükölgəli qala bilməz. Azərbaycan Odlar yurdudur, od olaraq düşməni yandıracaq, düşmənin daşı-daş üstündə qalmayacaq.

***İ.Mütəllimoğlu***

# Geri boylanmağa dəyər

### Ömürlüyünə nəzər saldıqda

Ağ saçlı, parlaq gözlü, gülər üzlü, nurlu simalı, şıq geyimli, qıvraq yerişli Əliabbas Məlikovla tez-tez rastlaşıram. O, Lerik Rayon Mədəniyyət Məkəzinin direktoru vəzifəsində çalışır. Fasiləsiz olaraq 42 ildir mədəniyyət sahəsində işləyir, rayonun mədəniyyət inkişafı üçün əlindən gələni əsirgəməyib. Gəlin onun keçdiyi ömür yoluna nəzər salaq. Şübhəsiz ki, qazandığı itirdiklərindən çox olub...

Əliabbas Əşrəf oğlu zəngin təbiəti, bərəkətli zəmiləri, zəhmətkeş insanları, müdrik ağsaqqalları ilə tanınan Murya kəndində anadan olub. Murya kəndində 8-ci sinfi bitirsə də Şingədulan kənd orta məktəbində orta təhsilini başa vurub. Əsgərlikdən qayıtdıqdan sonra Bakı Mədəni-Maarif Texnikumunda bədii özfəaliyyət dram kollektivinin rəhbəri fakültəsinə daxil olub, bu sahənin incəliklərini öyrənib. 1988-ci ildən Murya kənd klubunun müdiri işləyib. 2011-ci ilədək isə Lerik Rayon Mədəniyyət Mərkəzinin direktoru vəzifəsinə təyin olunub. Çalışdığı müddətdə mədəniyyətimizin Lerik rayonunda inkişaf etməsinə çalışıb. Axı, ölkəmizin gələcəyi mədəniyyətimizin inkişafı ilə də bağlıdır, mədəniyyət xalqları birləşdirir, ünsiyyət yaradır, mədəniyyəti kamil olan xalq daim ucalır, tanınır, geniş şöhrət tapır.

Əliabbas Məlikov öz işindən zövq almaqla yanaşı, həmişə fəal ictimaiyyətçi, təşkilatçı olmağı ilə fərqlənib, dövlət tədbirləri onun sayəsində yüksək səviyyədə keçib. O, 17 saylı seçki məntəqəsinə uzun illər rəhbərlik edib. Mədəniyyət Nazirliyi və Lerik Rayon Mədəniyyət şöbəsi tərəfindən Fəxri fərmanlara, Lerik Rayon Ziyalılar Cəmiyyəti, MİHİ Lerik Rayon Komitəsi tərəfindən diplomlara layiq görülmüşdür.

### Mədəniyyət xalqları birləşdirir, vətəndaşlarımızı milli ruhda tərbiyə edir

Əliabbas Məlikov Sovet dönəmi dövründə də, Azərbaycan müstəqillik qazandıqdan sonra da həmişə çalışıb



ki, mədəniyyət sahəsində işlər sistemli şəkildə görülsün. Mədəniyyətimizin gələcək inkişafı, cəmiyyətdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır. O, deyir:

- Bizim gələcək nəslimiz milli ruhda tərbiyə olunmalıdır. Ancaq bu halda Azərbaycan əbədi müstəqillik yolu ilə gedə bilər. Buna nail olmaq üçün, əlbəttə ki, əsas amil bizim mədəniyyətimizdir, incəsənətimizdir, ədəbiyyatımızdır, ana dilimizdir, milli təfəkkürümüzdür.

Sonra Əliabbas müəllim söhbətinə davam edərək deyir: - Biz, mədəniyyət işçiləri sevinirik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bərqərar olmuş sabitlik, dinamik inkişaf kursu Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daha da artmasına səbəb olmuşdur. Ölkəmiz hər il beynəlxalq tədbirlərə ev sahibliyi edir, mədəniyyətlərarası dialoqun mərkəzi kimi tanınır. Çağdaş dünyada mədəni irs, incəsənət xalqları tanıdan, insanları, xalqlaırı birləşdirən, ölkələri sülhə və əmin-amanlığa çağıran mühüm vasitədir. Azərbaycanın zəngin mədəniyyəti sərhədlərimizdən çox-çox uzaqlarda uğurla təqdim və təbliğ olunur. Azərbaycanda milli-mədəni irsimizin qorunmasında, təbliğində, milli müxtəlifliyin dəstəklənməsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın müstəsna xidmətləri bütün cəmiyyətdə, xüsusilə də mədəniyyət ictimaiyyətində böyük qürur hissi doğurur. Onun rəhbərliyi ilə həyata keçirilən çoxsaylı layihələr mənəvi, tarixi, mədəni irsimizin qorunması, tarixi abidələrin bərpası və yenidən qurulması, abadlaşdırılması işində əvəzsiz əhəmiyyətə malikdir...

### Musiqi səslənəndə toplar susmalıdır

Belə bir deyim var: musiqi səslənəndə toplar susmalıdır. Bu deyim özündə çox mühüm bir faktoru etiva edir, musiqinin bəşəri mahiyyət daşıyır. Hətta ecazkar musiqi səslənərək topların, müharibənin susmasını, dayanmasını tələb edir.

Əliabbas Məlikovun rəhbərliyi ilə rayonun musiqi və rəqs, folklor kollektivləri dəfələrlə əsgərlər qarşısında məharət göstərmiş, rayon tamaşaçılarının rəğbətini qazanmışdır. Bu il Lerik şəhərində "Bölgələrdən bölgələrə" yaradıcılıq festivlı keçirildi, tamaşaçıların böyük rəğbətini qazandı. Bu layihə ölkəmizin bütün regionlarını əhatə etməklə onların mədəni zənginliyini sənətkarlıq irsi ilə bir festival meydançasında tanış olmaq imkanı yaratdı. Festivalın daha maraqlı keçməsində, rəngarəng omasında Əliabbas müəllimin təşkilatçılığı özünü göstərdi.

Rəqs qruplarından söz açan Əliabbas müəllim dedi:

- Lerik rayon Mədəniyyət Mərkəzinin nəzdində 10 mədəniyyət evi, 47 klub vardır. Mədəniyyət Mərkəzinin "Bahar" xalq çalğı alətləri ansamblı "Rəfti" rəqs xalq kollektivi (qocalar rəqs qrupu) fəaliyyət göstərir.

Cəngəmiran kənd diyarşünaslıq evinin "Cəngi", Monidigah kənd folklor evinin "Lakto", Noda kənd folklor evinin "Çiçək" rəqs qrupları rayon sakinlərinin rəğbətini qazanmışlar. "Rəfti" rəqs xalq kollektivinin çıxışları təkcə rayonumuzda, respublikamızda deyil, Rusiya və Türkiyədə maraqla qarşılanmışdır.

Bəli, beləcə Əliabbas Məlikov və onun daxil olduğu mədəniyyət və incəsənət aləmindən söhbət açdıq. O, yaşadığı illərə boylanarkən hərdən fikirləşir: geri boylanmağa dəyər.

***İ.Mütəllimoğlu***

# Qartal zirvədə uçar

**(Əvvəli səh. 1-də)**

Bəd xəbər tez yayılır. Televiziya vasitəsilə hərbi jurnalist Şəmistan Əlizamanlının verdiyi "Hacıyev Səxavət Əbi oğlunun valideyinləri təcili Müdafiə Nazirliyinin Analitik İnformasiya Mərkəzinə zəng etsinlər" xəbəri bir anda hər yerə yayıldı. Bütün qohumlar, dostlar, tanışlar Rvaruddan Bakıya axışdılar. Yenilməz əsgər, düşmənin qənimi olan Səxavətin cənazəsi xalqımızın and yeri olan Şəhidlər Xiyabanında torpağa tapşırıldı. Qardaşları, sinif yoldaşları, məktəblilər onun məzarı qarşısında Səxavətin əməllərini yaşadacaqlarına and içdilər...

Rvarud kəndinin qocaman müəllimi **Barat Abbasov** Səxavət Hacıyevin qəhrəmanlığı barədə belə deyir:

- Kəndimizin uca bir yerində şəhidlərin abidəsi ucalır: "Zirvə". Burada Rvarud kəndinin şəhidlərinə abidə qoyulub. Biz abidəni ziyarət edərkən onu yad edir, onunla fəxr edirik. İlk növbədə Səxavət Hacıyevi ehtiramla hərbi xidmətə yola düşən gənclər burada sədaqət andı içirlər. Məktəbimiz də onun adını daşıyır.O, könüllü şəkildə özünü odun, alovun içinə atmış, ölümə qənşər getmişdir. Vətən yolunda özünü qurban verən mərd Səxavət fəxrimizdir, ölümü ilə ölməzlik qazanmışdır. Şagirdlər inşa yazarkən onun mənalı həyatına müraciət edir, onunla qürur duyurlar.

**Mübarizin yoxluğu ən çox Səxavətin qardaşı Mübarizi ağrıdır:**

- Səxavət bacarıqlı qardaş, elə dayaq gənc idi. Onun üçün həyatda çətin iş yox idi. Hansı işdən yapışırdısa, onu tezliIə başa çatdırırdı. Qarabağda münaqişə başlayanda onun da rahatlığı yox idi. O, Qarabağın



müdafiəsinə getməyi qəti qərarlaşdırmışdı. Onu bu işdən çəkindirmək istəyənlə razılaşmır, belə deyirdi:- "Mən getməsəm, sən getməsən, o getməsə bəs Vətəni kim müdafiə edəcək?"

Mübariz deyir:- Səxavətin cəbhədə yaralandığını eşidən kimi qardaşım Hacımirzə ilə gecə bütün xəstəxanaları axtarmağa başladıq. Onu M. Nağıyev adına şəhər kliniki xəstəxanasında tapdıq. Mübariz bizi görən kimi yastıqdan dikəlib oturdu və dedi:

- Sizə kim xəbər verdi, məndə heç nə yoxdur, bir həftəyə çıxaram, heç kəsə bildirməyin, adamları narahat etməyin...

Biz hər gün yanına gəlir, yemək gətirirdik. Ona baxan həkim dedi:

- Əlimdən gələni edəcəyəm, ümid Allaha qalıb.

Deyəsən mərmi Mübarizin döş qəfəsində sağ yer qoymamışdı. O, isə kəskin ağrılara dözür, bizi görəndə gülümsəməyə çalışırdı. 25 yanvarda yanına gəldim. Onun könül verib sevdiyi bir qız vardı . Müharibədən sonra toy edəcəyini qərarlaşdırmışdı.

Palataya girəndə mənə dedi:

- Get Gülnazı gətir, onu görmək istəyirəm.

Mən taksi ilə Dəniz Limanı tərəfdə yaşayan Gülnazgilə getdim, vəziyyəti ona bildirdim. Biz xəstəxanaya çatanda artıq işişdən keçmişdi. Qardaşlarımızın naləsi göyə ucalmışdı...

### Vətən səni unutmur

İndi Şəhidlər Xiyabanıdır Səxavətin son mənzili. Ötən il yanvarın 25-də şəhidlik zirvəsinə ucalmış Səxavətin anadan olmasının 40 və dünyaya vida etməsinin 15 illiyi Bakıda keçirilmiş mərasimlə yadda qaldı.

Azərbaycan Respublikasının Prezidenti yanında QHT-yə Dövlət Dəstəyi Şurası 20 Yanvar İctimai Birliyi ilə birlikdə "Yeniyetmə və gənclər arasında Milli Qəhrəmanların xatirəsinə həsr olunan tədbirlərin təşkili" çərçivəsində növbəti tədbiri Lerik şəhər mərkəzində keçirdi. Tədbir Qarabağ Müharibəsində böyük hünər və şücaət göstərmiş Səxavət Əbi oğlu Hacıyevə həsr olumuşdu. Mədəniyyət Mərkəzində baş tutan toplantıda Dövlət Himni səsləndirildi. Lerik RİH başçısının müavini **Arzu Vəliməmmədova** tədbiri açdı. O, şəhidlik zirvəsinə ucalan qəhrəman oğullardan danışdı. Şəhidlərin, onların ailələrinin, Qarabağ veteranlarının, əlillərin dövlət qayğısı ilə əhatə olunduğunu xüsusi olaraq qeyd etdi, gənclər arasında hərbi vətənpərvərlik tərbiyəsinin təşkilindən danışdı.

Şəhid Səxavət Hacıyevə həsr olunmuş **"Qəhrəman ananın qəhrəman oğlu"** sənədli filmi nümayiş etdirildi.

Filmdə deyilirdi ki, Səxavət "Rvarud" adlı xeriyyə cəmiyyəti" yaratmışdı. O həmişə xeyirxahlıqla məşğul idi, dara düşənlərə kömək edirdi. Vətənə sevgisinin əvvəli də, sonu da vətənlə bağlı olduğu üçün canı ilə, qanı ilə Vətənin müdafiəsinə qalxdı və bu yolda da şəhid getdi.





Ehtiyatda olan polkovnik, Qarabağ qazisi **Hikmət Ağayev** çox geniş və əhatəli nitq söylədi, onun çıxışı alqışlarla qarşılandı. Lerik Rayon Ağsaqqallar Şurasının sədri **Həmzə Vəlimməmmədov**, ağsaqqal ziyalı **Məzahir Ağazadə,** 20 Yanvar İctimai Birliyinin sədri Mustafa Qaramanlı, Qarabağ qazisi **Veysəl Məlikov,** Lerik RTŞ-in müdiri **Zöhrab Salayev,** YAP Yasamal Rayon Təşkilatının sədr müavini şəhid Səxavət Hacıyevin sinif yoldaşı **Arzuman Muradlı,** Çayrud kənd ərazi inzibati dairəsinin nümayəndəsi **Xanlar Həmid,** şəhidin sinif yoldaşı **Elcan İsgəndərov,** 20 Yanvar İctimai Birliyinin sədri **Soltan Əzimzadə** çıxış edərək Səxavət Hacıyevdən, ümumilikdə şəhidlərimizdən, Milli Ordunun qüdrətindən, Ali Baş Komandan İlham Əliyevin qətiyyətindən danışdılar.

Lerik Rayon Mədəniyyət Mərkəzinin hazırladığı musiqi çələngi, müğənnilərin ifaları, məktəblilərin oxuduğu şeirlər şəhidin ruhuna tam uyğun seçilmişdi.

**Şəhid Səxavət Hacıyevin qardaşı Mübariz Hacıyev çıxış edərək dedi:**

- Mən toplantıya qatılan hər kəsə, Lerik rayon rəhbərliyinə, tədbirin təşkilatçılarına minnətdaram. Qardaşım Səxavət deyirdi ki, bir gün gələr siz mənimlə fəxr edərsiniz. O gün 26 ildir ki, yol gəlir və biz onunla fəxr edirik. Mən Səxavətin adından zaldakılara üz tutub deyirəm:

-Sizin uğurunuzda şəhid olmağa dəyər...

### Bu da son

**Səxavətin ruhu dilə gəlib qarşımı kəsir:**

**- Salam, ey müqəddəs ruh!**

**-Salam olsun hamıya. Onu da mənim əvəzimdən yazın: "Bağışla, Vətən, köməyinə çatıb xilasına çatmadıq. Anamızın anası, yaralı pələng tək inləyən, imdad diləyən Vətən torpağı, bizi bağışla!**

***İdris Şükürlü,***
***yazıçı-publisist***

# Biçin start götürür

## *Bu il taxıl zəmilərindən bol və keyfiyyətli məhsul gözlənilir*



Taxıl-buğda, çörək Vətənin qüdrəti, xalqın dayağı, adamların dizinin qüvvəti, bir sözlə, həyat deməkdir. Taxılçılıq strateji sahə olmaqla yanaşı, həm də əvəzsiz qida mənbəyi, insanların firavan yaşayışı, yemçilikdə xüsusi rolu olan sahədir.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirilir. Bu mənada taxılçılığa son illərdə göstərilən dövlət qayğısı getdikcə səmərə verir. Ərazilərdə, fermer təsərrüfatlarında indi taxıl yığımının qızğın çağıdır. Taxılçıların işi ilə tanış olmaq üçün üz tutduq Livədirgə ərazisinə - alın təri ilə işləyən taxılçıların, mexanizatorların çalışdıqları tarlalara.

Biz sahəyə çatanda günəş bir boy qalxmışdı. Murya kəndinin tarlalarında nərilti ilə işləyən kombaynın səsi eşidilirdi. Maşından düşüb bol taxıllı zəmilərə yaxınlaşdıq. Kombayn-çı Tofiq Qəribov skifləri yağlamaq, yanacağın səviyyəsini yoxlamaq üçün cəld hərəkətlə kabinadan yerə düşdü. Bizi görüb salamlaşdı, bir-iki dəqiqəliyə ayaq saxladı. Biçinin gedişi barədə soruşduqda Tofiq Qəribov əlinin dalı ilə alnındakı təri silərək dedi:

- Şükür Allaha, bu il zəmilər bərəkətli, taxıl isə boldur. Biçin başlanandan 60 hektar zəmini biçmişəm. Zəmilərin hər hektarının orta məhsuldarlığı 25-30 sentnerə yaxındır. Ən yüksək məhsuldarlığa Pikəxan Əzizov nail olub. O 8 hektar zəmisində yüksək məhsul yetişdir. Artıq onun zəmilərində biçin başa çatmaq üzrədir.

Tofiq Qəribov təcrübəli mexanizatordur, bir neçə texnikanın dilini yaxşı bilir. O, texnikanın gücündən səmərəli istifadə edir, vaxt itkisinə yol vermir. Bol taxılı optimal müddətdə yığmağı, əkinçini sevindirməyi özünə borc bilir.

Öyrəndik ki, Güləxan Həsrətov, Əfsər Həmidov, Mirqabil Əsgərov yetişdirdikləri zəmilərdən yüksək məhsul götürüblər. Digər fermerlər də onlardan geri qalmır, vaxtdan səmərəli istifadə edir, taxıl itkisinə imkan vermirlər.

Bu il rayonda 2995,5 hektarda payızlıq taxıl əkilmişdir. Bunun 82 hektarı arpa, 113 hektarı isə çovdardır. Biçin 8 ərazidə davam edir. Digər kəndlər də işə başlayacaqlar.

Şingədulan, Livədirgə, Əliabad, Züvüç, Blaband, Vistən ərazilərində biçin yaxşı təşkil olunmuşdur. Əkinçilər bilirlər ki, indi çəkilən gərgin zəhmət sabahın rahatlığı, firavanlığı deməkdir.

***Fədail Şükürov***




# Yollar zirvələrə qalxır

Lerik rayonunun sosial-iqisadi inkişafının sürətləndirilməsi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar, açılışlarını həyata keçirdiyi layihələr Lerikin davamlı inkişafında mühüm əhəmiyyət kəsb edir. Prezidentin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun xoşbəxtliyi dayanır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisad inkişafı Dövlət Proqramına uyğun olaraq Lerik rayonunda infrastruktur layihələri icra olunur. Belə layihələrdən biri də Lerik - Şinəband - Orand - Nuravud - Zərdəbərə avtomobil yolunun yenidən qurulmasıdır. Proqramda nəzərdə tutulmuş tədbirlər plana əsasən 8 kəndi, 5 minə yaxın əhalini birləşdirən 27 kilometr uzunluqda yolun yenidən qurulması işi sürətlə və texnoloji qaydalara uyğun olaraq davam etdirilir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sifarişi ilə dağlara tərəf uzanan, sıldırımlı qayalardan keçən yolun tikintisi ilə həmişəki kimi təcrübəli yol ustaları məşğul olur. Dərələrdə su axan yerlərdə süni dəmir-beton qurğuları tikilir, yolun gediş hissəsi və çiyinləri möhkəmləndirilir. Yolun etibarlı olmasını təmin etmək məqsədilə yola daş və çınqıl daşınaraq hamarlanır. Sərt döngələr aradan qaldırılır, işlənmiş torpaq yoldan kənar edilir.



Yol ustalarının öhədəsinə kifayət qədər güclü texnika verilmişdir. Yolda əsas işlər tamamlandıqdan sonra asfaltlama işlərinə başlanacaq.

***"Lerik"***

# Prezidentin sərəncamından sonra



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən Lerik şəhərində istismar müddəti başa çatmış ikimərtəbəli 8 mənzilli binada və 1932-ci ildə inşa edilmiş köhnə xəstəxanada yaşayan sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması qərara alınmış, 48 mənzilli yaşayış evinin tikintisi üçün 3,0 milyon manat vəsait ayrılmışdır.

Prezidentin sərəncamından sonra Lerik şəhərinin İ.Yaqubov küçəsində 4 mərtəbəli, 3 bloklu yaşayış binasının tikintisinə hazırlıq görülmüş, köhnə tikililər sökülmüş, torpaq işləri başa çatdırılmışdır.

Artıq həmin günlər xeyli arxada qalmışdır. Bəri başdan deyək ki, Lerik şəhərində ilk dəfə olaraq möhkəm dəmir-beton konstruksiyalardan ibarət sosialyönümlü layihə həyata keçirilir. Divarlar mişar daşından, arakəsmələr isə bişmiş kərpic bloklardan hörülür. Binanın layihə əsasında texnoloji qaydalara uyğun olaraq keyfiyyətlə tikilməsinə xüsusi diqqət yetirilir.

Tikinti obyektində qızğın işin şahidi olduq. Burada 60-a yaxın usta, fəhlə, santexnik, elektrik və qəlibçi işləyirdi. Tikintinin icrasını həyata keçirən "Elnur-2" şirkətinin iş icraçısı Rasim Həsənovla burada görüşüb tanış olduq. O, inşaat işlərinin gedişi barədə məlumat verərək dedi:

- Gördüyünüz kimi məsul bir işin icrası ilə - 48 mənzilli 4 mərtəbəli, 3 bloklu yaşayış binasının tikintisi ilə məşğuluq. Çünki bu bina cənab Prezidentin sərəncamı ailə ucaldılır, çoxlu ailəni sevindirəcəkdir. Artıq dördüncü mərtəbədə hörgü işləri və tavanın betonlanması başa çatmaq üzrədir. Eyni zamanda divarlar qum-sement qarışığı ilə suvanır, arakəsmələr kərpic bloklarla hörülür, plastik pəncərələr yerinə qoyulur, santexnik işləri həyata keçirilir, binanın daxilində elektrik naqilləri, avadanlıqlar quraşdırılır və s.

Qeyd etmək lazımdır ki, yaşayış binasında işlədilən müxtəlif çeşidli inşaat materiallarının keyfiyyəti bütün norma və tələblərə cavab verdiyi üçün həyata keçirilən tikinti işləri də texnoloji qaydalarına tam uyğundur. Yeni yaşayış binasının tikintisi ilin sonunda nəzərdə tutulsa da vaxtından qabaq müddətdə Lerik şəhər sakinlərinin istifadəsinə veriləcəkdir.

Oxucuların nəzərinə çatdıraq ki, iş icraçısı Rasim Həsənov 42 ildir tikintidə çalışır. Təcrübəli inşaatçı-mühəndis Lerik şəhərində bundan sonra da sosial layihələrin həyata keçiriləcəyinə əmindir.



***"Lerik"***

# Azərbaycan polisi

Sən dövlətimizin möhkəm dayağısan,
Qaranlıqda işıq saçan çırağısan.
Gündüzlər ölkəmizin yaraşığısan,
Qabaqda gedən üç rəngli bayrağısan,
Azərbaycan polisi!

Sən ölkənin bəzəyisən, tacısan,
Dövlətimizin kəsən qılıncısan.
Düşmənlərin qəlbinə sancılırsan,
Özün şirin, düşmənlərə acısan,
Azərbaycan polisi!

Qorxutmur səni nə yağış, nə duman,
Qorxutmur səni nə şaxta, nə boran,
Sənsən ayıq-sayıq postunda duran,
Cinayətkarlara zərbələr vuran,
Azərbaycan polisi!

Ana vətənin Azərbaycanın,
Keşiyindəsən zaman-zaman.
Düşmənlərinə vermə aman,
Onları izlə daban-daban,
Azərbaycan polisi!

Sən daim gəzintidəsən eşikdə,
Gecə-gündüz dayanmısan keşikdə.
İnsanlar rahat olurlar evində,
Körpələrsə mışıl yatır beşikdə,
Hörmətin var cəmiyyət içində,
Azərbaycan polisi!

Onun işi şərəflidir, çətindir,
Özü möhkəm, iradəsi mətindir.
Ona əynindəki mündir çox yaraşır,
Qabağına cinayətkar qatandır.
Öz işinə, məqsədinə çatandır,
Azərbaycan polisi!

Səni çox sevən doğmaca qardaşam,
Sən gedən yolları mən də aşmışam.
Veteran adını da qazanmışam,
Şad gününə, bayramına gəlmişəm,
Xırda şeirimi pay gətirmişəm,
Azərbaycan polisi!

***Daşdəmir Paşayev***
***BVM-nin veteranı,***
***təqaüddə olan polis polkovnik-leytenantı,***
***Lerik şəhəri***

# Həkimlər

*Doktor Elxan Bədəlovun xatirəsinə*

Bir dərəman axtardım əziz həkimlər,
Məni bu dünyada saxlaya bilsin.
Versin həyatımı, qaytar canımı,
Canı bu dünyada qoruya bilsin.

Xalat geyib, qalın mənim yanımda,
Dərman verib dur sən pasibanımda.
İynə vurma ağrı qopar canımda,
Qoru məni, saxla məni, həkimlər.

Sənsən əzrailin qatı düşməni,
Çox hallarda ona qalib gəlmişəm.
Qoyma, yaxın gəlib alsın canımı,
Saxla məni, qoru, əziz həkimlər.

Ürəyimdən axan qanlar qurumur,
Sarsıtdı dünyada dərdi-sər məni.
Saxla ürəyimin axan qanını,
Qoru məni, bu dərdlərdən, həkimlər.

İri addımlarla sən gəl yanıma,
Dərman verib, qulluq eylə canıma.
Baxma, mənim çox saralan halıma,
Təsəlli ver, məni qaldır, həkimlər.

Loğmandan, Rustidən qalan dərmanı,
Vaxtında sən çatdırırsan bizlərə.
Sağalt məni, qaldır bu gün yataqdan,
Yaşat sən bizləri yaşat, həkimlər.

Sınıq ürəyimə dərman olmusan,
Axan göz yaşımı silən olmusan.
Başımın üstündə qalan olmusan,
Köməyimə çatan, əziz həkimlər.

Çarə tapıb loğman oldun canıma,
Dərman verib, sən gəlirsən yanıma.
Təsəlli verirsən şirin canıma,
Ağrımı azaldın, əziz həkimlər.

Həyat genişdirsə mənə dar gəlir,
Şirin nemət mənə ağır dərd verir.
Yaxşılar həyatdan pis olub gedir,
Pisi yaxşı bilib, görən həkimlər.

Çox insana həyat verib getmisən,
Yaxşı olub, çox hörmətə yetmisən.
Çoxlarına şirin həyat vermisən,
Yaşadır həyatda sizi həkimlər.

Loğmandan qalmısız bizə yadigar,
Hippokrat and veribdir sizlərə.
And içibən daim baxın bizlərə,
Yaşadın bizləri, siz də həkimlər!

***Xureyman Qarayev***

# Oktyabrın 1-dən Azərbaycanda əhalinin siyahıyaalınması başlayacaq

Bu ilin oktyabr ayının 1-dən Azərbaycanda əhalinin siyahıyaalınması başlayacaq. Bunu Trend-ə Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov deyib.

T.Budaqov bildirib ki, əhalinin siyahıyaalınması üçün zəruri hazırlıq işləri aparılır. O qeyd edib ki, siyahıyaalınma prosesi 10 gün davam edəcək: "Əhalinin siyahıyaalınmasının nəticələrinin proqram təminatına daxil edilməsi, yekun olaraq məcmuələrin nəşr edilməsi 2022-ci ilin iyul ayına qədər davam edəcək".

Komitə sədri bildirib ki, müntəzəm olaraq 10 ildən bir əhalinin siyahıyaalınması keçirilir. Qeyd edək ki, əhalinin siyahıyaalınması Azərbaycan Prezidentinin müvafiq fərmanına uyğun olaraq həyata keçirilir.

# Bu il Azərbaycanda yeni dərman zavodu istifadəyə veriləcək

Azərbaycanda iki dərman zavodunun tikilməsi ilə bağlı işlər davam etdirilir. Bunu Trend-ə Səhiyyə nazirinin müavini Elsevər Ağayev deyib.

E.Ağayev bildirib ki, bu il zavodlardan birinin açılışının keçirilməsi nəzərdə tutulur. Zavodlardan biri Rusiya, digəri isə İran şirkəti ilə birgə tikilir.

Nazir müavininin sözlərinə görə, zavodlar fəaliyyətə başladıqdan sonra əhalinin ən çox istifadə etdiyi dərman vasitələri istehsal ediləcək.

Qeyd edək ki, dərman zavodları Pirallahı Sənaye Parkında tikilir.

# Arxiv bizim keçmişimizin güzgüsüdür

***«Arxiv işlərinə gərək çox ciddi fikir verək. Bir tərəfdən ona görə ki, bu, xalqımızın tarixini əks etdirən yeganə mənbədir, ikinci də ona görə ki, tariximizi təhrif edənlərin qarşısını almaq üçün çox mühüm amildir»***

***Heydər Əliyev***

Arxiv çox dəyərli mənbədir. Burada kiminsə qohum-əqrabası haqqında deyil,bütün cəmiyyətin mənafeyini qoruyan sənədlər və sənədlər toplusu qorunur və mühafizə olunur. Sənəd və sənəd kolleksiyalarının cəmiyyətimiz üçün əhəmiyyətli mənbə olmasını nəzərə alaraq hökümətimiz həmin mənbəni dövlət mühafizəsinə götürmüş, beləliklə də, dövlət arxivi formalaşdırılmışdır ki, bundan da xalqımız mütəmadi olaraq istifadə edir və faydalanır.

Arxiv sənədlərinin qorunub-saxlanılması, onlardan səmərəli istifadə olunması mühüm və vacib məsələdir. Bu məqsədlə respublika rəhbərliyi tərəfinndən yeni-yeni binalar tikilərək arxiv istifadəsinə verilir. Fəaliyyətdə olan binalar isə vaxtaşırı olaraq təmir edilir və yeni avadanlıqlarla təchiz olunur. Arxivlərdə qorunub-saxlanılan sənədlərdən istifadə olunmaqlavətəndaşlar sosial-hüquqi xarakterli sənədlər, arxiv arayışları, arxiv çıxarışları, arxiv surətləri əldə edir və tələbləri üzrə istifadə edirlər.

Lerik Rayon Dövlət Arxivi öz fəaliyyətini "Milli Arxiv Fondu haqqında Qanun" və Respublika Prezidentinin 02 dekabr 2002-ci il tarixli Fərmanına uyğun olaraq qurur. Rayon arxivi əvvəllər köhnə, heç bir şəraiti olmayan , darısqal binada yerləşirdi. Arxiv sənədlərinin və sənəd kolleksiyalarının qorunub-saxlanılması və mühafizəsini təmin etmək məqsədilə Lerik Rayon Məhkəməsi təzə binaya köçdükdən sonra Lerik Rayon İcra Hakimiyyəti başçısının sərəncamı ilə məhkəmənin əvvəlki geniş binası rayon dövlət arxivinə verildi, arxiv köhnə, darısqal binadan Nizami küçəsi,-4ünvanında yerləşən 6 otaqlı yeni binaya köçürüldi. Rayon İcra hakimiyyətinin.başçısı cənab Rövşən Bağırovun göstərişi ilə arxiv yeni kompüter və printerlə təmin olundu, eləcə də sənədlərin təhlükəsiz qorunması məqsədilə yanğınsöndürmə avadanlıqları alınaraq arxivə verildi..

Arxivə göstərilən qayğıların qarşılığında biz də işimizi günün tələblərinə uyğun qurmağa çalışırıq, istər rayon icra hakimiyyəti tərəfindən, istərsə də Milli Arxiv İdarəsi tərəfindən verilən bütün tapşırıq və tövsiyyələrə əməl olunmasına səy göstəririk.

Lerik Rayon Dövlət Arxivində 1935-2013-cü illəri əhatə edən 161 fondda ümumilikdə 30000 saxlama vahidinə yaxın idarə, müəssisə və təşkilatlardan qəbul edilmiş daimi və 75 il saxlama müddətli sənədlər mühafizə olunur.Rayon arxivinin 102 qəbul mənbəyi vardır ki, 2018-ci ildə bunun 33-dən cəmi 56505 vərəqdən ibarət 304 sənəd mühafizə üçün qəbul edilmişdir.Hal-hazırda arxivdə 29987 saxlama vahidi qorunub-saxlanılır. Arxivin mühafizəxanasının dolululuq dərəcəsi 75 faizə bərabərdir.

2018-ci il ərzində arxivdə saxlanılan bütün fondlar üzrə sənədlərin mövcudluğu yoxlanılmışdır.

2018-ci ildə vətəndaşlar tərəfindən rayon Dövlət Arxivinə cəmi 477 müraciət daxil olmuşdur ki, onun da 463-nə müsbət cavab verilmişdir.

Hesabat ilində 700 vərəqdən ibarət sənədlər bərpa edilmiş, 369 saxlama vahidi cildlənmiş və tikilmiş, 100 saxlama vahidi kardon qutulara yığılmışdır.2018-ci il üçün iş planında nəzərdə tutulmuş işlərə əməl edilmişdir.

2018-ci ildə arxivin binasında cari təmir işləri aparılmış, binanın üzərindəki şifer materiallarının müəyyən hissəsi yenisi ilə dəyişdirilmişdir.

Rayon icra hakimiyyətinin, sabiq Lerik Rayon XSDS İcraiyyə Komitəsinin, keçmiş kənd Sovetləririnin,kolxoz və sovxozların, rayonun idarə,-müəssisə və təşkilatlarının, yerli ərazi icra nümayəndəliklərinin, bəzi bələdiyyələrin sənədləri arxivdə qorunub-saxlanılır.Vətəndaşlardan, idarələrdən, o cümlədən hüquq mühafizə orqanlarından daxil olan sosial-hüquqi sorğular əsasında araşdırmalar aparılır və sorğunun tələbinə uyğun olaraq arxiv arayışları və arxiv çıxarışları verilir (lazım gəldikdə sənədlərin təsdiq edilmiş surətləri də verilir).

2017-ci ilin IV rübündə Milli Arxiv İdarəsi tərəfindən cənub bölgəsində-Masallı, Lənkəran, Lerik, Astara və Yardımlı arxiv işinuin təşkili və arxivin fəaliyyəti ilə bağlı kompleks yoxlama keçirilmişdir.Yoxlama zamanı bəzi nöqsanlar nəzərə alınmaqla, Lerik Rayon Dövlət Arxivinin işi kafi qiymətləndirilmiş və yoxlamanın nəticəsi Milli Arxiv İdarəsinin kollegiya iclasında müzakirə edilmişdir.

Lerik Rayon Dövlət Arxivində iş planının haszırlanması və plan üzrə işin qurulması ilə bağlı Azərbaycan Respublikas Dövlət Arxivinin Lənkəran filialı ilə də sıx əlaqələr yaratmışıq.Onların verdiyi tövsiyyə və göstərişləri işimizdə tətbiq edirik.ARDA Lənkəran filialının köməkliyi ilə fond siyahılarının elektron variantının hazırlanması və elektron hökumət portalına qoşulmaq istiqamətində də xeyli işlər görülmüşdür.

Bundan sonra da çalışacağıq ki, işimizi günün tələblərinə uyğun quraq, sənədlərin mühafizəsini və onlardan istifadəni daha da yaxşılaşdıraq

***Baladdin Şükürov,***
***Lerik Rayon Dövlət***
***Arxivinin müdiri***

# Yaxşı ad qoyub gedənlər unudulmur!



Ötən əsrin otuzuncu illəri, müharibə və sonrakı illər ağır idi. Soydaşlarımızın çoxu yazıb-oxumağı bacarmırdılar. Eyni zamanda Stalinin kommunist rejimi ölkəmizə, xüsusi ilə Cənub bölgəsinə böyük fəlakət gətirdi. Bölgədə soydaşlarımızı imkan daxilində bu zülmətdən və fəlakətdən xilas etməyə, tanınmış ağsaqqal, xeyriyyəçi, fəal vətəndaş, Lerikin ilk tibb işçisi Rəvvaq kişi kimi qeyrətli, millət fədailəri lazım idi.

Həmin illərdə hakimiyyət barədə adicə söz demək yasaq idi. Haqsızlıq böyük vüsət almışdı. 1937-ci ilin repressiyası Rəvvaq kişidən yan keçmədi: iki inək sahibi olan bacısı Səhrəbanu xanım 3 körpə uşaqla Qazaxıstan çöllərinə sürgün edildi. Bacısının sürgünə göndərilməsi zamanı kövrələnən Rəvvaq kişini sürgün olunan kulak ardınca kövrələnən firqəçi adı ilə həbs edirlər.

Rəvvaq kişidə elə-obaya bağlılıq, ictimaiyyətçilik Allah vergisi idi. Rəvvaq kişi ilə görüşən insanlar bir qayda olaraq onun dostlarına və məsləkdaşlarına çevrilirdilər. O, dövrdə dost və yoldaş tapmaq xüsusi cəsarət tələb edirdi. İnsanlar repressiyanın qorxusundan bir-birinə xoflu nəzərlə baxırdılar. Buna baxmayaraq Rəvvaq kişinin rayondan kənarda və rayonda çoxlu dostları və məsləkdaşları var idi. Onun yaxın dostu filosof Heydər Hüseynovun işə qarışması sayəsində Rəvvaq kişi həbsdən azad olur.

Çoxlarının qolundan tutan, onlara maddi və mənəvi dəstək olan Rəvvaq kişi təbiətən xeyirxah, nəcib bir insan idi. O, eyni zamanda, mehriban ailə başçısı idi. Dörd övladının hamısını ali təhsilli etmişdi. Rəvvaq kişi rayonda tanınmış şəxslərin çoxuna maddi və mənəvi yardım göstərmişdir. O, milis şöbəsinin rəisi Cahangirov Babaxana və Abdullayev Əbdülhüseynə tələbəlik illərində maddi və mənəvi dəstək olmuşdu.



Mən yarım əsrdən çox milis orqanın tərkibində xalqa xidmət etmişəm. Bu müddət ərzində Rəvvaq kişinin işlədiyi bölgələrdə həmişə əmin-amanlıq olmuşdur. O, işlədiyi yerlərdə özünü hökumət məmuru deyil, ağsaqqal kimi aparaq, bütün narazılıqları islah yolu ilə həll edərdi.

Rəvvaqın xidmət etdiyi kəndlərdə narazılıq az olardı və yaxud heç olmazdı.

Ona görə də işlədiyi yerlərdə yaşlı nəsil onu böyük hörmətlə yad edir. Onun yaşıdları bu müdrik və tədbirli insana ağsaqqal kimi baxır və hörmət edirdilər. Rəvvaq kişi islamiyyəti dərin bilən idi. Dini bayramlarda təhsilli islamiyyətçiləri evə dəvət edib, özü başda olmaqla müqəddəslərin ruhuna Qurani-Kərimi oxuyardılar. Lerikdə hamı ona ağsaqqal kimi yanaşır, onu hörmətlə "Rəvvaq dayı" deyib çağırırdı.

Onunla rastlaşan hansıs bir insan salam-.kalamsız keçməzdi.

Lerikdə Rəvvaq kişini Allah adamı kimi tanıyırdılar. Həmişə ağsaqqallar onu məclisdə yuxarı başa dəvət edirdilər. Hüzr mərasimində din xadimlərinin arzusu və istəyi ilə o, Qurani-Kərimi avazla oxuyar və adamların qəlbinə yol tapmağı bacarırdı. Bu sadə, mehriban, xeyirxah insan səxavətdə də bənzərsiz idi. Son tikəsini və son qəpiyini dost-tanışdan əsirgəməzdi. Rəvvaq kişi dünyasını çoxdan dəyişsə də əməlləri həmişə yaşayır, o, unudulmur. Xalq üçün yananlar, ömrünü onun işıqlı gələcəyinə sərf edənlər bunun əvəzini gözləməmişlər. Əbəs yerə demirlər: "Xalqımız qədirbilən xalqdır".

Tanınmış ağsaqqal, xeyriyyəçi, alovlu vətəndaş, Lerikin ilk tibb işçisi Rəvvaq Ramazanovun adı əbədiləşdirilsə onun ruhu şad olar, hamı razı qalar.

***Daşdəmir Paşayev,***
***təqaüddə olan polis polkovnik-leytenant***



# Mükafatı "sağ ol"lardır

İdris Səfərov otuz il olar ki, sürücü işləyir. O, bu illər ərzində haralarda sürücü işləməyib, hansı ölkələrdə olmayıb?

Üzləşdiyi çətinliklər, rastlaşdığı qeyri-adi şərait heç vaxt onu qorxutmayıb, əksinə, onu daha da qorxmaz edib, mətinləşdirib.

Təcrübəli sürücü, peşəkar sükan ustası İdris Səfərov Azərbaycanda keçirilən İslam Həmrəyliyi Oyunlarında, Olimpiya yarışlarında sayılıb-seçilən bir sürücü kimi fəal iştirak edib, nəyə qadir olduğunu göstərib.

Hazırda İdris Səfərov Binə-Lerik avtobus marşrutu üzrə sürücü işləyir. Hər gün sərnişinləri mənzil başına rahat və vaxtında çatdırmadan rahatlıq tapmır. Ən yüksək mükafatlar isə sərnişinlərin "sağ ol"larıdır.

***Foto Babəkindir***

# Böyüklük sadəlikdədir

Bəziləri insanın böyüklüyünü onun vəzifəsində, bəziləri də varında, dövlətində görürlər. Əslində isə həyatda tutduğu mövqe, ürəyinin saflığı, qəlbinin böyüklüyü, son dərəcə alicənablıq, mərhəmət və səxavət, bəşəri, həm də insani duyğular özgə dərdinə yanmaqdır, dünyanı düçar olduğu fəlakətlərdən, müharibələrdən, qan-qadadan xilas etməkdir, böyüklükdür.

O, dünyanı dərk etmək istəyən, həyatı insana verə biləcəyi nə varsa dadmaq istəyən, böyük həyat eşqinə malik olan bir ziyalı, söz və qələm sahibi, Vətənini və el-obasını, yurdunu sevən vətəndaşdır. Özünəməxsusluğu, fədakarlığı, dözümlüyü, qətiyyəti, səxavəti, dostluğa sədaqəti ilə seçilir Mətləb Axundov. Onun böyüklüyü sadəliyində, böyük ürək sahibi olmasındadır.

Həyat yolu Allah-Təala tərəfindən ona münasib seçilib. Nikolay Ostrovskinin bu fikrinin çox önəm daşıdığını deyir: "İnsan həyata bir dəfə verilir, onu elə yaşamaq lazımdır ki, mənasız və məqsədsiz keçirilən illərə görə xəcalət və ağır utanc hissi keçirməsin".

Mətləb Axundov ona bəxş olunmuş ömür payını yaşadıqca təəssüf hissi keçirmir, əksinə mənalı keçən ömrün hər anı həm onun üçün, həm də başqaları üçün mənalıdır, yaddaqalandır. O ömrün kamil çağlarına, ahıllıq yaşlarına qədəm qoyarkən yaxşı dərk edirdi ki, qələmə alıb yazıya köçürdüyü, sonra da üzərində işləyib nəşr etdirdiyi məqalələr, esselər, publisistik qeydlər, islami söhbətlər daha qiymətlidir. Müxtəlif illərdə oğlu Hacı Rəşadla birlikdə çap etdirdiyi "Müdriklik işığında", Zəkanın təntənəsi", "Hikmət boğçası" kitabları ilə çoxsaylı oxucular tanış olmuş, layiqli qiymət vermişlər. Xüsusi olaraq qeyd etmək önəmlidir ki, hər kəsin istifadəsinə çevrilmiş, stolüstü kitabı olmuş həmin kitablar qiymətlidir, gənc nəslin yetişməsində önəmli yer tutur, müdriklərimizin bizə miras qoyub getdiyi söz xəzinəsidir və bu da məhz bizə qalacaq...

Biz Mərdəkandakı veteranlar sanatoriyasında müayinə və müalicə olunmağa getmişdik. Dostum Məmməd Şiriyev orada məni başdan-ayağa qədər ziyalılıqdan, müdriklikdən, alicənablıqdan xəbər verən bir nəfərlə-Mətləb Axundovla tanış etdi. Görüşüb söhbətləşdik, dərdləşdik, hərənin deməyə sözü vardı. Məşədi Mətləb Axundovun isə mübaliğəsiz desək söz boğçası, hazırcavablıqda seçilən kitab müəllifi - yazıçı olduğu bizə bəlli oldu. Ümumiyyətlə, bizimlə həmyaşıd dostumuzun əsl vətəndaş, yanar ürəkli dost olması barədə çoxlu fikir söyləyə bilərik. Çox söz deməyin də qədəri var. Gərək haqqında deyilən sözə dostumuz kimi layiq olasan.

Xalqın hörmətini qazanmaq həyatda layiqli yer tutmaq, cəmiyyətə xeyir vermək, mənalı, şərəfli, yaddaqalan ömür sürmək Məşədi Mətləb Axundova nəsib olmuşdur. Mətləb dostumuz vəzifədə işlədiyi illərdə necə ki, təcrübəli energetik kimi xalqa, millətə xeyir verib, o indinin özündə də boş-bekar dayanmır, özünü sırada hiss edir, yazır-yaradır, sözün qüdrətindən səmərəli istifadə edir, ürəklərə, yaddaşlara yol tapır.



***Məmməd Şiriyev,***
***Tofiq Bədəlov***
***Əmək veteranları***

# "Qloballaşma və milli kimlik"




İyunun 28-də Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı və Lerik Rayon İcra Hakimiyyətinin dəstəyi ilə Lerikdə "Qloballaşma və milli kimlik" mövzusunda seminar-treninq keçirilib. Tədbirdə Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini **Arzu Vəliməmmədova,** fondun icraçı direktorunun müavini **Rəfi Qurbanov,** Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri **Qağayı Məmmədov,** ziyalılar, müəllimlər, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Seminarı giriş sözü ilə açan Lerik Rayon İcra Hakimiyyəti başçısının müavini Arzu Vəliməmmədova mövzunun aktuallığı ilə bağlı fikirlərini bildirərək keçirilən tədbirə görə fondun rəhbərliyinə öz təşəkkürünü bildirib. Fondun icraçı direktorunun müavini Rəfi Qurbanov "Qloballaşma və milli kimlik" mövzusunda təqdimatla çıxış edib. O, qloballaşma prosesinin cəmiyyətə təsiri və vasitələrini, eləcə də bunun fonunda milli kimliyin mövcud çalarlarının qorunub saxlanılması üçün məqsədyönlü səylərin görülməsinin vacibliyini qeyd edib. Eyni zamanda, milli kimliyimizi xarakterizə edən vəhdətimizi, müxtəlifliyə hörmət, loyallıq və s. kimi anlayışları iştirakçıların diqqətinə çatdırıb.

DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov çıxışında dünyada gedən qloballaşma proseslərində milli kimliyimizin və mənəvi dəyərlərimizin qorunub saxlanılmasının zəruriliyini vurğulayıb. Natiq qeyd edib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycançılıq məfkurəsi milli kimliyimizin əsasını təşkil edir.

Keçirilən tədbirlərin yekununda iştirakçılarla geniş fikir mübadiləsi aparılıb və onları maraqlandıran suallar cavablandırılıb.

# "Gender bərabərliyi və media" mövzusunda informasiya sessiyası keçirilib




Avropa Şurasının (AŞ) Bakı Ofisi Obmudsman Aparatı və Mətbuat Şurası ilə birgə "Azərbaycanda gender bərabərliyi və media azadlığı layihəsi çərçivəsində Lənkəran və digər bölgələrin KİV və QHT nümayəndələri üçün "Gender bərabərliyi və media" mövzusunda informasiya sessiyası keçirib.

Sessiyanın açılışında AŞ Bakı Ofisinin nümayəndəsi və layihənin rəhbəri Pərvanə Bayramova diqqətə çatdırıb ki, bu il 70 yaşı olan Avropa Şurasının ölkələri arasında ilk dəfədir ki, jurnalistlərin peşə davranışı qaydalarında gender bərabərliyi prinsipi geniş aspektdə ifadə olunub: "Layihənin əsas məqsədi mediada və media vasitəsilə Azərbaycanda gender bərabərliyinin təşviq etməkdir. Yeri gəlmişkən, Azərbaycan Demokratik Respublikası müsəlman dövlətləri arasında ilk, Avropada isə birinci dövlətlərdəndir ki, qadınlara bərabərlik hüququ verib".

Azərbaycan Mətbuat Şurası sədrinin müavini, Jurnalist Həmkarlar İttifaqının sədri **Müşfiq Ələsgərli** layihənin həyata keçirilməsi məqsədlərindən danışıb: "İstəyirik ki, bu sahənin modern əsaslarla işıqlandırılmasında jurnalistlərin bilik və bacarıqları artırılsın".

Müstəqil ekspert **Ələsgər Məmmədli** gender bərabərliyi və media azadlığı sahəsində Avropa Şurası standartları və Azərbaycan qanunvericiliyi, Ombudsman Aparatının rəhbəri, hüquq üzrə fəlsəfə doktoru **Aydin Səfixanlı** gender bərabərliyi və media azadlığı sahəsində qabaqcıl təcrübələr, vəkil **Adil İsmayılov** məhkəmə mübahisələri haqda fikirlərini bölüşüblər. Jurnalistlərinin Peşə Davranışı Qaydalarının gender bərabərliyi perspektivindən (yenilənmiş versiya), Qadın Jurnalistlər Assosiasiyasının prezidenti **Sevil Yusifova** gender sahəsində nailiyyətlər və problemlərdən, "Astara" qəzetinin baş redaktoru **Fəridə Ağazadə** isə regionlarda qadın jurnalistlər və medianın durumundan danışıblar.

Məruzələrdə və çıxışlarda media nümayəndələrinin bu istiqamətdə peşəkarlığını daha da artırmasının vacibliyi vurğulanıb. Xüsusilə qeyd olunub ki, gender bərabərliyinin təmin olunmasında media hələ çox iş görülməlidir. Belə ki, media həm özünü, həm də başqalarını dəyişməlidir.

Tədbirdə vurğulanıb ki, Avropa Şurası 1 mart 2018-ci ildən etibarən "Azərbaycanda gender bərabərliyi və media azadlığı" layihəsinə başlayıb. Layihə çərçivəsində yerli və beynəlxalq ekspertlərin iştirakı ilə "Azərbaycan Jurnalistlərinin peşə davranışı qaydaları" gender bərabərliyi perspektivində nəzərdən keçirilib. Qaydalara əlavə etmək üçün "Ayrı-seçkiliyə yol verilməməsi və gender bərabərliyi prinsipi"nin mətni hazırlanıb. Mətnə əsasən, jurnalist ayrı-seçkiliyə yol verməməli və gender bərabərliyi prinsiplərinə hörmət etməli, cinsi ayrı-seçkilik yaradan və ya cinsi nifrətə çağıran üslubdan uzaq durmalı, xəbərin məzmunu bilavasitə tələb etmirsə, şəxsin cinsi mənsubiyyətini vurğulamamalı və ya fərqləndirməməlidir. Eləcə də, prinsipdə gender stereotiplərinin təbliğ edilməməsi, gender-əsaslı zorakılıq hallarının mediada həssaslıqla işıqlandırılması, kişi və qadın jurnalistlərə bərabər hüquqlar və imkanların təmin olunması öz əksinin tapıb.

İki günlük keçən informasiya sessiyasına Lənkərandan və ətraf rayonlardan 50 media və QHT nümayəndəsi iştirak edib.

# "Lerik"də oxuyun:

☛ *Böyükağa Mirsalayev niyə güllələndi?*
☛ *Necəsən, Aşıq Əlifağa Əmioğlu?*

# Sosial ödənişlərin bölüşdürülməsi avtomatlaşdırılıb

Vergi Məcəlləsinə edilmiş son dəyişikliklərdən sonra məcburi sosial sığorta və işsizlikdən sığorta haqlarının ödənilməsinə dair hesabatların təqdim olunmasına nəzarət Vergilər Nazirliyinin funksiyalarına aid edilib. Bununla yanaşı, vergi və sosial qanunvericilikdə aparılan dəyişikliklərlə sosial ödəmələrin faiz nisbəti ödəyicilər arasında yeni bölgüdə müəyyənləşib.

Neft-qaz sahəsində fəaliyyəti olmayan və özəl sektorda işləyən, əməkhaqqı 200 manata qədər olan işçilərin gəlirlərindən 3 faiz, işəgötürənin vəsaitindən isə 22 faiz sığorta haqqı kimi tutulur. Vətəndaşın gəliri 200 manatdan çox olarsa, gəlirdən 200 manata qədər olan hissəyə 6 manat, artıq hissədən isə qalan məbləğin 10 faizi, işəgötürəndən isə 200 manata görə 44 manat, artıq olan hissəyə görə 15 faiz sığorta haqqı tutulur. Qeyd edək ki, 2019-cu ilin 1-ci rübündə məcburi dövlət sosial sığortası üzrə büdcəyə 582,1 milyon manat, işsizlikdən sığorta üzrə isə 22,8 milyon manat həcmində vəsait daxil olub.

Sosial sığorta hesabatlarının vergi orqanları tərəfindən qəbul edilməsi vergi ödəyiciləri üçün bir çox prosesləri sadələşdirib. Bununla belə, ilkin mərhələdə vergi və sosial hesabat sistemlərinin uzlaşdırılması zamanı sığorta haqlarının ödənilməsində və bölüşdürülməsində müəyyən çətinliklər müşahidə olunub. Texniki səbəblərdən yaranan çətinliklər bəzi hallarda hətta vergi ödəyicilərinin bank hesablarına sərəncam qoyulması ilə nəticələnib.

Bu məsələyə aydınlıq gətirən Vergilər Nazirliyinin İqtisadi təhlil departamentinin Sosial sığorta ödənişlərinə nəzarət və təhlil idarəsinin direktoru Nigar Vahabzadə bildirib ki, vergi ödəyicilərinin belə hallarla üzləşməməsi üçün müvafiq addımlar atılıb:

"Vergi ödəyicilərindən daxil olan müraciətlərin təhlili göstərir ki, sosial sığorta ödənişlərinin büdcə təsnifat koduna uyğun düzgün bölüşdürülməməsi nəticəsində bir təsnifat kodunda artıq ödəmələrin, digər təsnifat kodunda isə borcun yaranmasına səbəb olur. Bu da vergi ödəyicisinin borcu olan hissədə sərəncamların göndərilməsi ilə nəticələnir. Son nəticədə vergi ödəyicisi artıq ödəməsi olduğu halda, sərəncamların bank hesablarına göndərilməsinə narazılığını bildirir. Bu tipli problemlərin yaranmaması üçün ödəniş edən zaman büdcə təsnifat kodunu seçəndə vergi ödəyicilərinin diqqətli olmaları tövsiyə edilir".

Bildirilib ki, Vergilər Nazirliyi vətəndaş məmnunluğunu əsas götürərək bölüşdürülməmiş və ya ödənişin fəaliyyət növünə uyğun olmaması nəticəsində yaranan problemin həlli məqsədilə bölüşdürülməmiş ödənişlərin vergi orqanları tərəfindən avtomatik bölüşdürülməsinə texniki imkan yaradıb. Avtomatik proses əsasında vəsaitlərin bölüşdürülməsi təmin olunduqdan sonra həmin borca hesablanmış penyalar azaldılır və bank hesablarına qoyulmuş sərəncamlar geri çağırılır.

Bəzi vergi ödəyicilərini narahat edən nüanslardan biri də əvvəlki dövrlərdə sosial sığorta üzrə yaranmış borclar və onların səbəbləri ilə bağlıdır. N.Vahabzadə artıq bununla bağlı dəqiqləşmələrin aparılmasının yerli vergi orqanlarına həvalə edildiyini bildirib: "Bir sıra vergi ödəyicilərinin müraciətləri əsasən 1 yanvar 2019-cu il tarixinədək hesablanmış və saldo şəklində şəxsi hesab vərəqəsində əks etdirilən borcların məbləğinin düzgün olmaması və bu tipli yanlış hesablamalarla bağlı müvafiq tədbirlərin həyata keçirilərək şəxsi hesab vərəqəsi üzrə məbləğlərin düzəldilməsi tələbi üstünlük təşkil edir. Sosial sığorta üzrə borcların araşdırılaraq dəqiqləşmələrin aparılması istiqamətində aidiyyəti üzrə işlərin icrası yerli vergi orqanları tərəfindən həyata keçirilir".

# Hörmətli oxucular!

***Rayonumuzun yeganə mətbu orqanı olan***

## *"Lerik"*

***qəzetinə 2019-ci ilin ikinci yarım ili üçün abunə yazılışı davam edir. Qəzetə Lerik Rayon Poçt filialında, Mətbuat Yayımı şöbəsində və redaksiyanın özündə abunə yazıla bilərsiniz. Qəzetin yarım illik abunə qiyməti 10 manatdır.***

***Redaksiyanın Kapital bankın Lerik filiallındakı hesab nömrəsi H/№AZO5AİİB33080019447400220174,***

***VÖEN: 6300050071-dir.***

***Qəzetimizə abunə yazılanlara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.***

***"Lerik" qəzeti redaksiyası***

*Əziz oxucular!*

*Onu da qeyd edək ki, ilin ikinci yarısında bəzi idarə və təşkilatlar "Lerik" qəzetinə abunə yazılmayıblar.*

*Biz "Lerik" qəzetinə abunə olmayan idarə və təşkilatların adlarını, onların rəhbərlərinin adlarını qəzetimizdə çap edəcəyik.*

# Sosial sığorta haqqının sahibkarlıq fəaliyyətinə və işçilərə görə hesablanması

"Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 14.3-cü və 14.4-cü maddələri, müvafiq olaraq, sığortaedən və sığortaolunan tərəfindən ödənilən sığorta haqqının, 14.5.1-ci maddəsi isə fərdi sahibkarın sahibkarlıq fəaliyyəti üzrə ödəməli olduğu məcburi dövlət sosial sığorta haqqının hesablanması qaydalarını müəyyənləşdirir.

**Mövzunu** iqtisadçı ekspert İsmayıl Bağırov şərh edir.

"Sosial sığorta haqqında" Qanunun 14.3-cü maddəsinə əsasən, sığortaedən tərəfindən ödənilən sığorta haqqı – hesablanmış əməyin ödənişi fondunun 22 faizi, sığortaolunan tərəfindən ödənilən sığorta haqqı isə - işçinin əməkhaqqının 3 faizi, 14.4-cü maddəsinə əsasən neft-qaz sahəsində fəaliyyəti olmayan və qeyri-dövlət sektoruna aid edilən şəxslər öz vəsaiti hesabına işçilərin əməyin ödənişi fonduna görə 44 manat + 200 manatdan çox olan məbləğin 15 faizi və işçilərin hesablanmış əməkhaqqından tutulmaqla 6 manat + 200 manatdan çox olan məbləğin 10 faizi həcmində məcburi dövlət sosial sığorta haqqı ödəyirlər.

**Misal 1:** Dövlət tikinti müəssisəsi Bakı şəhərində tikinti fəaliyyəti ilə məşğuldur. Müəssisənin əmək müqaviləsi ilə 10 nəfər işçisi var və hər işçiyə 700 manat əməkhaqqı ödəyir. Müəssisənin işçilərin əməkhaqqına görə ödəməli olduğu məcburi dövlət sosial sığorta haqqının məbləğini hesablayaq.

Müəssisə işçiləri üçün əməyin ödənişi fondunun müəssisənin vəsaiti hesabına ödəməklə 1.540 manat (hesablanmış əməyin ödənişi fondunun 22 faizi, yəni 700 x 22% = 154 x 10 işçi = 1.540 manat) və işçinin əməkhaqqından ödəmə mənbəyində tutulmaqla 210 manat (işçilərin əməkhaqqının 3%-i, yəni 700 x 3% = 21 x 10 işçi = 210 manat) miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəməlidir.

**Misal 2:** Fərdi sahibkar Bakı şəhərində neft-qaz sahəsinə aid olmayan tikinti fəaliyyəti ilə məşğuldur. Fərdi sahibkarın əmək müqaviləsi ilə 5 nəfər işçisi var və hər işçiyə 1.000 manat əməkhaqqı ödəyir. Fərdi sahibkarın işçilərin əməkhaqqına görə ödəməli olduğu məcburi dövlət sosial sığorta haqqının məbləğini hesablayaq.

Fərdi sahibkar işçiləri üçün əməyin ödənişi fondunun öz vəsaiti hesabına ödəməklə 820 manat (44 manat + 200 manatdan çox olan məbləğin 15%-i, yəni (200 x 22%) + (800 x 15%) = 164 x 5 işçi = 820 manat) və işçinin əməkhaqqından ödəmə mənbəyində tutulmaqla 430 manat (6 manat + 200 manatdan çox olan məbləğin 10%-i, yəni (200 x 3% = 6) + (800 x 10% =80) = 86 x 5 işçi = 430 manat) məcburi dövlət sosial sığorta haqqı ödəməlidir.

"Sosial sığorta haqqında" Qanunun 14.5.1-ci maddəsində isə göstərilib ki, 2020-ci il yanvarın 1-dək ticarət və tikinti sahələrində sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər ölkə üzrə müəyyən edilmiş minimum aylıq əməkhaqqının 50 faizi, digər sahələrdə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər isə 20 faizi: Bakı şəhərində 100 faizi, Sumqayıt və Gəncə şəhərlərində 90 faizi, respublika tabeli digər şəhərlərdə (Naxçıvan, Mingəçevir, Naftalan, Şirvan, Yevlax, Şəki, Lənkəran, Şuşa, Xankəndi) 80 faizi, rayon mərkəzlərində, digər şəhərlərdə və qəsəbələrdə 60 faizi, kənd yerlərində 50 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyirlər. 2020-ci il yanvarın 1-dən isə sahibkarlıq fəaliyyəti üzrə – minimum əməkhaqqının tikinti və ticarət sahələrində 50 faizi, digər sahələrdə 25 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəyəcəklər.

**Misal 3:** Fərdi sahibkar Sumqayıt şəhərində tikinti sahəsində xidmətlə məşğuldur. Bu zaman fərdi sahibkar öz fəaliyyəti üçün sahibkarlıq fəaliyyətinə görə ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının (180 manat) hər ay üçün 50 faizinin 90 faizi miqdarında, yəni 180 x 50% = 90 x 90% = 81 manat məcburi dövlət sosial sığorta haqqı ödəməlidir.

**Misal 4:** Sahibkarlıq fəaliyyəti ilə məşğul olan Rəşad Əliyev Naxçıvan şəhərində əhaliyə məişət xidməti göstərir. Bu zaman fərdi sahibkar öz fəaliyyəti üçün sahibkarlıq fəaliyyətinə görə ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqı məbləğinin hər ay üçün 20 faizinin 80 faizi miqdarında, yəni 180 x 20% = 36 x 80% = 28,8 manat məcburi dövlət sosial sığorta haqqı ödəməlidir.

**Misal 5:** Naxçıvan şəhərində ərzaq məhsullarinin satışı ilə məşğul olan fərdi sahibkarın əmək müqaviləsi ilə 5 nəfər işçisi var və hər işçiyə 600 manat əməkhaqqı ödəyir. Fərdi sahibkarın həm özü üçün sahibkarlıq fəaliyyəti üzrə, həm də işçilərin əməkhaqqına görə ödəməli olduğu məcburi dövlət sosial sığorta haqqının məbləğini hesablayaq.

Bu zaman fərdi sahibkar öz fəaliyyəti üçün sahibkarlıq fəaliyyətinə görə ölkə üzrə müəyyən olunmuş minimum aylıq əməkhaqqının hər ay üçün 50 faizi məbləğinin 80 faizi miqdarında, yəni (180 x 50% ) x 80% = 72 manat məcburi dövlət sosial sığorta haqqı ödəməlidir. Həmin şəxs işçiləri üçün əməyin ödənişi fondu üzrə öz vəsaiti hesabına ödəməklə 520 manat (44 manat + 200 manatdan çox olan məbləğin 15%-i, yəni (200 x 22%) + (400 x 15%) = 104 x 5 işçi = 520 manat) və işçidən ödəmə mənbəyində tutulmaqla hesablanmış əməkhaqqından 230 manat (6 manat + 200 manatdan çox olan məbləğin 10%-i, yəni (200 x 3%) + (400 x 10%) = 46 x 5 işçi = 230 manat) miqdarında məcburi dövlət sosial sığorta haqqı ödəməlidir.

# Pərakəndə ticarətdə e-qaimələr 71,3 faiz artıb

Bakıda keçirilmiş III Milli Mühasiblər Forumunun son panel iclası qanunvericilikdə edilmiş dəyişikliklərin mühasibat uçotuna təsiri, vergi sahəsində aparılan islahatlar, eləcə də əməkhaqqı və ona bərabər tutulan ödəmələrin tənzimlənməsində yararanmış uyğunsuzluqlara həsr edilib.

Vergilər Nazirliyinin İqtisadi təhlil departamentinin baş direktoru Natiq Şirinov çıxışında vergi islahatlarının nəticələrinin qiymətləndirilməsindən danışıb. Bildirib ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliklərin əsas məqsədi mütərəqqi, mükəmməl və beynəlxalq standartlara cavab verən vergi sisteminin formalaşdırılmasıdır. Bu dəyişikliklərin əksər hissəsi həm də beynəlxaq qanunvericiliklə uzlaşır: "İkinci məsələ, innovasiya yönümlü iqtisadiyyatın inkişafını təmin edən və qeyri-neft sektorunun ixrac potensialını gücləndirən vergi siyasətinə üstünlük verilməsidir. Son illərdə ölkədə aparılan iqtisadi islahatların başlıca qayələrindən biri qeyri-neft sektorunda ixracın stimullaşdırılması, ixracın təşviqi sənədlərinin verilməsidir. Təbii ki, vergi siyasəti də bununla uzlaşmalıdır. Əsas məsələlərdən biri də vergi ödəyiciləri ilə partnyorluq münasibətlərinin qurulmasıdır. Məqsəd bütün münasibətlərin şaquli çərçivədən üfüqi çərçivəyə salınması ilə yanaşı, vergi ödəmək vərdişinin cəmiyyətin normasına çevrilməsinə, vergilərin könüllü ödənilməsinə nail olmaqdır".

Şəffaflığın təmin olunması çərçivəsində görülən işlərə toxunan N.Şirinov dəyişikliklərdən biri kimi səyyar vergi yoxlamalarının sayının kəskin şəkildə azaldılmasını qeyd edib. Ötən ilin vergi ödəyiciləri üçün keçid ili elan edildiyini xatırladan nazirlik rəsmisi bunun vergi ödəyiciləri ilə vergi orqanları arasında təmasın üfüqi çərçivəyə salınması ilə uçotun dürüstləşməsi, bərpası məqsədi daşıdığını deyib: "Söhbət, ilk növbədə, mühasibat uçotunun bərpasından gedir. Buna görə də həm ötən il, həm də bu ilin 5 ayında səyyar vergi yoxlamalarının sayı əvvəlki illərlə müqayisədə üç dəfədən çox azalıb. Buna baxmayaraq, bir yoxlamaya düşən səyyar vergi yoxlaması üzrə hesablanan məbləğlər 3,5 dəfə artıb".

Məqsəd bütün münasibətlərin şaquli çərçivədən üfüqi çərçivəyə salınması ilə yanaşı,

vergi ödəmək vərdişinin cəmiyyətin normasına çevrilməsinə, vergilərin könüllü ödənilməsinə nail olmaqdır.

N.Şirinov çıxışında vergi daxilolmaları barədə bəzi statistik məlumatları da açıqlayıb. Bildirib ki, ötən ilin 5 ayı ilə müqayisədə bu ilin ilk 5 ayında vergi daxilolmalarında 8,3 faiz artım olub. Qeyri-dövlət sektoru üzrə vergi daxilolamalarında 10 faiz, qeyri-neft- qaz sektoru üzrə 16,1 faiz, qeyri-neft qaz sektorunun özəl bölməsində 17,6 faiz artım olub. Regionlardan vergi daxilolmaları isə 8,6 faiz artıb. Ötən ilin eyni dövrü ilə müqayisədə bu ilin 5 ayında məcburi dövlət sosial sığorta yığımları 18,2 faiz, işsizklikdən sığorta məbləğləri isə 72,8 faiz artıb.

Dövriyyələrin "ağarmasının" Vergilər Nazirliyi üçün prioritet olduğunu vurğulayan N.Şirinovun sözlərinə görə, ötən ilin 4 ayı ilə müqayisədə 2019-cu ilin ilk 4 ayında qeyri-neft sektorunda dövriyyələr 6,3 faiz "ağarıb". E-qaimə üzrə rəsmiləşdirilən dövriyyələr isə təxminən 10 faizdən çox artaraq 16,8 faiz təşkil edib. Topdan ticarət üzrə dövriyyələrdə 16, 7 faiz artım

baş verib. E-qaimə-faktura ilə rəsmiləşən topdan ticarət isə 42,5 faiz artıb. İstehsal üzrə cəmi dövriyyələr 13,5 faiz, istehsalda e-qaimə-faktura üzrə rəsmiləşən dövriyyə isə 30 faizə yaxın yüksəlib. Pərakəndə ticarət üzrə dövriyyələrin artımı 37,4 faiz təşkil edib. Pərakəndə ticarətin əldə etdiyi e-qaimələr isə bundan 2 dəfədən çox – 71,3 faiz artıb: "Eyni mənzərə iaşə üzrə dövriyyədə də müşahidə edilib. Burada 19,8 faizlik artım olduğu halda, iaşə sektorunda mal, iş və xidmətlərin e-qaimə-faktura ilə əldə edilməsi səviyyəsi 43,3 faiz artıb. Burada da 2 dəfədən çox artım olub".

Departament direktoru alkoqollu içkilər və tütün məmulatları üzrə göstəriciləri də açıqlayıb. Bildirib ki, alkoqollu içkilər üzrə istehsalın həcmi ötən ilin 4 ayı ilə müqayisədə bu ilin 4 ayında 12,1 faiz, alkoqollu içkilər üzrə dövriyyə 62,2 faiz, onların satışında e-qaimə-faktura üzrə rəsmiləşən dövriyyə isə 2 dəfədən çox artıb. Tütün məmulatları istehsalının həcmi 2,7 dəfə, dövriyyə 8,4 dəfə, e-qaimə ilə rəsmiləşən dövriyyə isə 9,1 dəfə artıb.

## Allah rəhmət eləsin!

Lerik RİH başçısı Rövşən Bağırov, rəhbərlik etdiyi kollektivlə birlikdə Milli Məclisin deputatı İqbal Məmmədova atası

**Hacı Nərimanın**

vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verir.

---

İdris Şükürlü öz ailəsi ilə bərabər

**Heybət Həsənovun**

vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

---

Lerik RMX-ın baş həkimi Mübariz Ağayev, rəhbərlik etdiyi kollektivlə birlikdə həkim Mirkamal Vəliyevə oğlu

**Faiqin**

vaxtsız vəfatından kədərlənir, dərin hüznlə başsağlığı verir.

Redaktor
İdris ŞÜKÜRLÜ

Təsisçilər:
Lerik Rayon İcra Hakimiyyəti və "Lerik" qəzetinin redaksiyası
H/№AZO5AİİB33080019447400220174
VÖEN:6300050071

Lisenziya № V 280
İndeks 96935
Hər kəs öz imzasına cavabdehdir.
Əlyazmalar geri qaytarılmır

Redaksiyanın ünvanı:
Lerik şəhəri,
Nizami küçəsi
Tel: (070) 520-73-91

Qəzet "Son Dakika" MMS mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Tiraj: 550
Sifariş: 432

